**E-poçt:** elzaminquliyev@aztu.edu.az

Quliyev Elzamin Rəhman oğlu 09 iyul 2000-ci ildə Tovuz rayonunun Yanıqlı kəndində anadan olub.

2017-ci ildə Tovuz rayonu Yanıqlı kənd tam orta məktəbini bitirərək Azərbaycan Texniki Universitetinin (AzTU) Nəqliyyat və logistika fakültəsinə daxil olub. Təhsil aldığı müddətdə universitet təşkilatlarında fakültə üzrə sədr vəzifəsi daşıyıb, fakültə dekanlığında könüllü kimi çalışıb.

2021-ci ildə Nəqliyyat və logistika fakültəsinin "Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi" ixtisası üzrə bakalavr səviyyəsini, 2023-cü ildə isə həmin ixtisasın "Nəqliyyat əməliyyatlarının intellektual idarə edilməsi" ixtisaslaşdırılması üzrə magistratura səviyyəsini fərqlənmə diplomu ilə bitirib.

2023-2024-cü illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmiş, "leytenant" zabit hərbi rütbəsi ilə ordu sıralarından ehtiyyata buraxılmışdır.

Azərbaycan Texniki Universitetində 17.09.2021-ci ildən 12.11.2021-ci ilədək Nəqliyyat və logistika fakültəsində Akademik məsləhətçi, 12.11.2021-ci ildən 01.09.2022-ci ilədək Yüksək Təhsil İnstitutu Beynəlxalq Biznes Məktəbi Sabah Magistratura Proqramları üzrə Akademik məsləhətçi, 01.09.2022-ci ildən 20.07.2023-cü ilədək Yüksək Təhsil İnstitutu Beynəlxalq Biznes Məktəbində İxtisas rəhbəri, 17.09.2024-cü ildən 12.09.2025-ci ilədək Metallurgiya və kimya texnologiya fakültəsində Akademik məsləhətçi vəzifələrində çalışıb.

2024-cü ildən Dövlət İmtahan Mərkəzində Zal nəzarətçisi kimi fəaliyyət göstərir.

Hazırda 12.09.2025-ci ildən Nəqliyyat və logistika fakültəsində Akademik məsləhətçi vəzifəsində çalışır.

7 elmi məqaləsi müxtəlif jurnallarda dərc olunub.

Yeni Azərbaycan Partiyasının (YAP) üzvüdür.